**The Guardian": Azərbaycan qazıntı yanacağı istehsalçılarına qlobal istiləşmə ilə mübarizəyə qoşulmağı təklif edir**

Xarici mətbuat bu il COP29 iqlim sammitinə ev sahibliyi edəcək Azərbaycanın irəli sürdüyü İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması təşəbbüsündən bəhs edir.

AZƏRTAC xəbər verir ki, İngiltərənin nüfuzlu "The Guardian" qəzetinin iyulun 20-də dərc etdiyi məqalədə iqlim investisiya fondunun qazıntı yanacağı istehsal edən ölkələrdən və şirkətlərdən maliyyə töhfələri qəbul edəcəyi və bu vəsaitləri inkişaf etməkdə olan ölkələrdə istixana qazı emissiyalarının azaldılması, ekstremal hava şəraiti ilə mübarizə və müqavimətin artırılmasına yönəlmiş layihələrə investisiya üçün istifadə edəcəyi qeyd edilir. Diqqətə çatdırılır ki, fondun vəsaitinin 1 milyard dollara çatacağı gözlənilir.

COP29-un baş müzakirəçisi Yalçın Rəfiyevin sözlərinə görə, ənənəvi maliyyələşdirmə üsulları iqlim böhranının çağırışlarına qeyri-adekvat olduğunu sübut edib. O deyib: "Ona görə də biz problemə fərqli yanaşmaya qərar verdik. Fond qazıntı yanacağı istehsal edən ölkələrin və şirkətlərin töhfələri hesabına formalaşacaq və istənilən inkişaf etməkdə olan ölkə bu fonddan pul ala biləcək".

The Guardian" qəzetinin ətraf mühitin mühafizəsi üzrə redaktoru, məqalənin müəllifi Fiona Harvey yazır: "Fondun yaradılması BMT-nin iqlim danışıqlarında mədən yanacaqları və dünyanın əksər istixana qazları emissiyalarını istehsal edən ölkələr və sənaye cəhətdən yoxsul ölkələrə üzləşdikləri iqlim böhranının öhdəsindən gəlməkdə kömək etmək öhdəliyi ilə əlaqələndirmək üçün ilk cəhddir".

Qazıntı Yanacağının Yayılmaması Müqaviləsi Təşəbbüsü üçün qlobal əlaqə direktoru Haryet Sinqh inkişaf etməkdə olan ölkələr üçün yeni fond təklifinin şirkətlərin karbon emissiyalarını azaltmaq üçün məsuliyyətini bir daha təsdiq etdiyini deyib. O, iqlim böhranına qazıntı yanacaqlarının istehsalının səbəb olduğunu və bu sənaye şirkətlərinin iqlim dəyişikliyinin fəsadlarını da ödəməli olduğunu vurğulayıb.

Nəşr xatırladır ki, daha əvvəl Qrenada arxipelaqındakı doğma adasında Beril qasırğasının dağıdıcı nəticələrinin şahidi olmuş BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil bütün ölkələri emissiyaları azaltmaq və iqlim böhranından ən çox təsirlənən yoxsul ölkələrə yardım göstərmək üçün daha sərt planlar hazırlamağa çağırıb.

İcraçı katib vurğulayıb ki, UNFCCC Tərəflərinin Konfransının əhəmiyyəti ondan ibarətdir ki, o, bəşəriyyətə iqlim böhranını aradan qaldırmaq, karbonsuzlaşdırma məqsədinə nail olmaq və iqlimə davamlılıq yaratmaq üçün ümid verir.

**AZƏRTAC**
**2024, 20 iyul**